UOT-811.521.1
Səhifə:24-29
https://doi.org/10.59849/2663-8967.2026.2.24

Baba Məhərrəmli
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
filologiya elmləri doktoru, dosent
baba_magerramli@mail.ru

SKİF – AZƏRBAYCAN DİL ƏLAQƏLƏRİ

XÜLASƏ

Məqalədə skif və Azərbaycan dillərindəki leksem uyğunluqlarından, leksik paralelliklərdən bəhs olunur. Qədim yunan mənbələrində skif adlanan etnos həm də saka adı ilə tanınır. İndiyə qədər skiflər və ya sakalar adlanan qədim etnosun türk xalqları ilə bağlılığı haqqında müxtəlif səviyyəli araşdırmalar aparılmışdır. Skif-türk paralelliklərinin kompleks şəkildə tədqiqi nəticəsində bu paralelliklərin heç də təsadüfi olmadığı üzə çıxır. Skiflərlə türkləri, o cümlədən azərbaycanlıları həm arxeoloji qazıntılarda əldə edilən tapıntılarda əks olunan analoji obrazlar, həm də analoji dil faktları yaxınlaşdırır. Məqalənin əsas tezislərindən biri budur ki, Azərbaycan coğrafiyasında vaxtilə mövcud olan etnoslardan biri skiflərdir. Araşdırmada bu qənaətə gəlinir ki, skiflər Azərbaycan ərazisində türk sivilizasiyasının əsasını qoyan etnoslardan biridir.

Açar sözlər: *skif, Azərbaycan, leksik, paralellik, etnos.*

Giriş: Skiflər haqqında ilkin məlumatlar məşhur yunan tarixçisi Herodotun "Tarix" kitabında verilmişdir. Bir çox mənbələrə görə, skiflər haqqında ilkin mənbələr qədim çin yazılı qaynaqlarıdır. Qeyd edək ki, antik müəlliflərin əksəriyyətinin əsərlərində skiflər və Skifiya haqqında ətraflı bilgilər vardır. Həmin bilgilərə görə, skif etnosları vaxtilə indiki Qara dənizin şimalından tutmuş, Ural, Rusiya ərazilərinin bir hissəsindən, Şimali Qafqaza, tarixi Azərbaycan ərazilərinə, İran yaylasına qədər geniş bir ərazidə məskunlaşmışdılar. Bəzi hind-avropaşünaslar çox zaman skif dilinin hind-Avropa mənşəli olduğunu iddia etmişlər. İndiyə qədər bir çox iranşünaslar, o cümlədən E.Qrantovski, V.İ.Abayev, B.B.Miller kimi alimlər həqiqətə uyğun olmayaraq skif-sarmat tayfalarını İran mənşəli etnos kimi səciyyələndirmişlər. Məsələn, V.İ.Abayev "Skif-Avropa izoqlosları" əsərində indiki osetinlərin skiflərin varisləri olduğunu iddia etmişdir [12]. Bir çox digər mənbələrdə, o cümlədən vikipediya mənbələrində də, təəssüf ki, skiflər irandilli xalq hesab olunurlar [19]. Sovet dövründə rus dilində nəşr olunan "Dilçiliyə giriş" əsərlərinin əksəriyyətində skif dili İran dillərinə aid edilir. Məsələn, A.Reformatskinin 1967-ci ildə nəşr olunan "Dilçiliyə giriş" əsərində [18, s.218] və Y.S.Maslovun 1987-ci ildə nəşr etdirdiyi "Dilçiliyə giriş" əsərində də skif dili İran mənşəli dillərə aid edilir [16, s.228]. Təəssüf ki, E.A.Qrantovski də "Ön Asiyada İran tayfalarını qədim tarixi" monoqrafiyasında skif və kimmer tayfalarını İran mənşəli etnoslar kimi səciyyələndirir. Skiflərin Qafqaz mənşəyi, german, slavyan, fin-uqor, monqol mənşəli olması haqqında iddialar, gerçək olmayan fərziyyələr də var [1, s.79]. Homerin məlumatına görə, skiflər kimmer və sarmatlarla qohum olmuşlar [13, s.9-10]. Skifləri bəzən alanlar da adlandırırlar. Müxtəlif qaynaqlarda skiflərin türk mənşəli etnos olması haqqında da kifayət qədər zəngin məlumatlar var. Hələ Bizans tarixçisi Menandr (VI əsr) türklərin qədimdə saka adlandığını göstərmişdir. Yenə həmin dövrdə yaşamış F.Simokatta Qafqazda və şimalda yaşayan skifləri türk hesab etmişdir. VII əsrə aid "Erməni coğrafiyası"nda Skifiya Apaxtarx (yəni "türk") kimi izah olunmuşdur. X.Cuğaetsi (XVIII əsr) Asiya Skifiyasını Apaxtarx, yəni "türk" adlandırmışdır [2, s.25]. Y.Yusifov yazır ki, "e.ə. VII əsrin birinci rübündə şimalda yaşayan kimmer, sonra isə skit (onların tərkibində sak) tayfalarının Ön Asiyaya böyük axını başladı. Onlar Qara dəniz sahillərindən hərəkətə gələrək Qafqaz dağlarını aşıb Ön Asiyanın müxtəlif yerlərində

məskən saldılar" [8, s.387-389]. Göründüyü kimi, tarixçi Yusif Yusifov skit və sak terminlərini fərqləndirir.

Mahmud İsmayılın "Azərbaycan tarixi" əsərində P.Q.Latam və F.Q.Mişçenkonun skiflərin türk mənşəyi olduğunu isbat edən fikirləri yer almışdır. Skif, sak, sarmat, kimmer, işquz, massaget tayfalarının Azərbaycan ərazisinə gəlməsi miladdan əvvəl VII yüzilliyə aid edilir [5, s.12-17]. Tarixçi yazır: "P.Q.Latam adlı bir tədqiqatçı yazır ki, koman skifləri, massagetlər, saklar, peçeneqlər, xəzərlər, hunlar öz mənşələri etibarilə türkdürlər və bunu sübut etməyə ehtiyac yoxdur. Görkəmli alim Vsevolod Miller, yazır ki, bəzi müəlliflərin saklar adlandırdığı çar skifləri türkdilli olmuşlar. Hələ keçən yüzillikdə Herodotun "Tarixi"ini rus dilində nəşr etmiş rus alimi F.Q.Mişçenko yazır: "Skiflərin xarici görünüşü bütün cizgiləri ilə türk tipinə uyğun gəlir". Yenə həmin alim Herodotun "Tarix"inin ingilis dilində nəşr etmiş Seysin "Herodot skifləri türk - tatar soylarıdır" fikrini qeyd edir [5, s.17]. Müxtəlif qaynaqlarda skif, sak, saka//saq, skit, iskit adları, əslində, eyni etnosun fərqli cür adlandırılmasıdır. Azərbaycan ərazisində mövcud olan bəzi toponimlər məhz skif//saka etnoniminin izlərini yaşadır: Zaqalala toponimi saka+tala sözlərindən yaranıb, məlumdur ki, qədim türk dilində z~s əvəzlənməsi qanunauyğun fonoloji səs keçidlərindən biri sayılır. Eyni zamanda Şəki-saki sözündən yaranıb və s. Yəni müasir Azərbaycan ərazisində mövcud olan bir çox toponimlərdə məhz skif etnonimi qorunmuşdur. Zeki Velidi Toğan yazır ki, miladdan öncə VII-VIII əsrlərdə yunanların skit, farsların saka, çinlilərin su adlandırdıqları bu Altay (daha doğrusu Tyan-şan) qövmləri Şərqdə Çin hüdudlarında Qərbdə Qara dəniz və Dunaya qədər böyük bir ərazidə dövlət qurmuşdular. Ancaq onlar sonradan Şərqi Avropada İran və slavyan xalqları arasında "əriməyə" başladılar. Miladdan öncə 625-626-cı illərdə iranlılar və çinlilər tərəfindən onların qurduqları dövlətin əraziləri işğa olundu [9, s.44-45]. Beləliklə, skiflərin türk olduğunu fikrini qəbul edən Zeki Velidi Toğan İran tayfalarının skifləri assimilyasiyaya uğratdığını göstərir. Digər tanınmış türk dilçisi Əhməd Bican Erculasun da skiflərin türk olması fikrini qəbul edir [10, s.11]. F.Cəlilov Azərbaycan xalqının etnogenezisinin formalaşmasında saqa tayfalarının böyük rol oynadığını yazır [1, s.77]. Ümumiyyətlə, skif-sarmat-alan mədəniyyəti əksər türk xalqlarının mədəniyyətinə təsir göstərmişdir.

Azərbaycan ərazisində aborigen türk etnoslarından başqa sonradan gəlmə türk tayfaları da yaşamışlar. Hələlik Azərbaycan ərazisinə ilk gələn türk etnosları: kimmer, skif və ya sak tayfaları hesab olunur. Bunlar ilk dövrlərdə Azərbaycanda neçə min il əvvəldən məskunlaşmış aborigen türk tayfaları kutilər, lullubilər, sular, turukkilər, kaslar və başqaları ilə və onların varisləri mannalılar, madalılarla bir müddət qonşuluq münasibətində olsalar da, tədricən yerli türk etnosları ilə qaynayıb-qarışmış, e.ə. I minilliyin ortalarından başlayaraq daha əsaslı şəkildə, konsolidasiya prosesi keçərək Azərbaycan xalqının və dilinin təşəkkülündə bilavasitə iştirak etmişlər (6, s.308). Beləliklə, Azərbaycan xalqının etnogenezisinin formalaşmasında bir çox türkdilli tayfalar kimi, skiflər də önəmli rol oynamışlar. Bir çox skifoloqlar: A.N.Aristov, Z.Yampolski, E.Eyxvald və başqaları skiflərin türk mənşəli xalq olduğunu etiraf etmişlər. S.V.Kullanda "Skif: dil və etnos" məqaləsində türkdilli xalqlarla skiflərin genetik bağlılığının olması ehtimalı ilə razılaşmayaraq qeyd edir ki, türk dillərinin əlamətləri ilə skif dilinin fonoloji cəhətdən uyğunluğu yoxdur. O iddia edir ki, pratürk dilində söz əvvəlində *m və *l samitləri olmamışdır. Halbuki məşhur skif adları Madiy və Lipoksay tipli adlar qədim türk dili yaranmamışdan öncə skif dilində işlənmişdir" [13, s.32].

Skif dilinə aid leksik nümunələr çox azdır. Yəni skif dilinə aid apelyativ leksika nümunələri qaynaqlarda çox az qeyd olunmuşdur. Skif dilinə aid onomastik leksika nümunələri isə kifayət qədərdir. Skif dilinə aid antroponimlər, teonimlər və etnonimlər haqqında ilkin məlumatlar qədim dünya tarixi ilə bağlı mənbələrdə, xüsusilə qədim yunan tarixçilərinin və coğrafiyaşünaslarının əsərlərində öz əksini tapmışdır. Skif-türk leksik paralelləri ilə bağlı dünya elmində kifayət qədər araşdırmalar aparılmışdır. Onların bəzilərində skiflərin türklərlə qohumluğu fikri müdafiə olunmuşdur. Çünki tarixi qaynaqlarda skiflər daha qədim tayfa hesab edilir. Məsələyə skif, sarmat və alan tayfalarının genetik əlaqələri kontekstindən yanaşmaq daha doğrudur. Onlar sarmatların əcdadıdır, alanlar isə onlardan törəmə hesab olunur. Deməli, skiflər həm sarmatların, həm də alanların əcdadı olmuşdur. Bir çox araşdırmalarda skif və saklar ayrı-ayrı

etnoslar kimi təqdim edilir, əslində isə, onlar eyni etnosdur, sadəcə, yunan mənbələrində onlar skif, İran mənbələrində isə sak adlandırılıb. Skif dilindən bir çox toponimlər qalmışdır. Məsələn, Don çayının adı skif mənşəli danu "çay, su" sözündən yaranmışdır. Qaraçay-balkar alimi İ.M.Miziyevin skif - türk paralelləri ilə bağlı araşdırmaları vardır. İ.M.Miziyev qaraçay-balkar dillərindəki sözlərlə skif sözlərinin paralellərini vermişdir. İ.M.Miziyev bu paralelliyə bir neçə aspektdən baxmışdır: 1) Türklərlə skiflərin maddi mədəniyyət baxımından yaxınlığı; Türklərlə skiflərin mənəvi mədəniyyət baxımından yaxınlığı; ornamentlərin analogiyası; adət-ənənə analogiyası; antropoloji cəhətdən oxşarlıq; arxeoloji aspektdən yaxınlıq [17,s.20-25]. İ.M.Miziyev skif - türk genetik qohumluq probleminə daha obyektiv və ədalətli mövqedən yanaşmışdır. Türkologiyada skif-türk paralelləri ilə bağlı tanınmış tatar türkoloğu Mirfatıq Zəkiyevin də dəyərli araşdırmaları var. Belə ki, İ.M.Zəkiyevinn "Türk xalqlarının dərin etnik kökləri" adlı monoqrafiyasında skif – türk əlaqələrindən bəhs edilmişdir. Həmçinin digər tatar türkoloqu K.T.Laypanov da skiflərin türkdilli mənşəyi haqqında əsərlər yazmışdır [15]. Azərbaycanda da bu sahədə mühüm araşdırmalar aparılmışdır. Hələ XX əsrin əvvəllərində tanınmış türkoloq Bəkir Çobanzadə 1924-cü ildə yazdığı "Türk - tatar lisaniyyətinə mədxəl" əsərində yazır ki, Herodot və Falesin dövrlərində türk xalqları iskit və sarmatlar adlanırdı. Skiflər mövzusu Azərbaycan tarixçiləri: Qiyasəddin Qeybullayevin və Zaur Həsənovun araşdırmalarında geniş şəkildə öz əksini tapmışdır. Azərbaycan dilçiliyində isə Qəzənfər Kazımovun araşdırmalarında skif-Azərbaycan leksik paralellikləri mövzusuna geniş toxunulmuşdur. Xüsusilə alimin "Azərbaycan dilinin tarixi" əsərində skif-türk genetik birliyindən bəhs olunmuşdur [6, s.307-311]. Baba Məhərrəmlinin araşdırmalarında da türk sözləri ilə analogiya təşkil edən skif sözlərindən nümunələr verilmişdir. Onun "Dünya dillərində homogen sözlər" adlı fundamental monoqrafiyasında skif-türk paralellərindən nümunələr verilmişdir. Azərbaycan dilçiliyində Firudin Cəlilovun araşdırmalarında skif-türk paralelliklərindən dəfələrlə bəhs olunmuşdur. F.Cəlilov skif tayfalarından saqa adı altında bəhs edir. F.Cəlilov "Azər xalqı" kitabında bu tayfalardan "Saqa elatı" başlığı altında bəhs edir [1, s.77-126]. F.Cəlilov Azərbaycan dilinin qədim tarixi haqqında yazdığı "Doqquz bitik" əsərinin üçüncü cildində də saqa boylarını türk mənşəyi haqqında ətraflı məlumat vermişdir. F.Cəlilov, haqlı olaraq, yazır ki, skiflərin mənşəyi haqqın olan problemi sonradan bir çox tədqiqatçılar yaratmışlar. Çünki saqa boyları ilə təmasda olmuş, Saqa çarlığı dövründə yaşamış tarixçilərdən və min il fasiləsiz Bizans mənbələrindən tutmuş XVII əsrə qədər saqalardan danışan müəlliflər onlardan türk ulusu kimi bəhs etmişlər [1, s.79]. Qəzənfər Kazımov yazır ki, skiflər müxtəlif tayfa birliklərindən ibarət olmuşlar. Herodotun məlumatından belə bir nəticə çıxarmaq olar ki, müstəqil skif dili varmış. Eyni zamanda, ellin dilində danışan skiflər də varmış. Savromatlar, amazonkalar "pis skif" dilində danışmışlar. Bir sıra tayfaların isə öz ayrı dilləri varmış və skiflər mərkəzə yığışanda danışığı "yeddi dilmancın köməyi ilə yeddi dildə aparırmışlar. Böyük ordu ilə bağlı məsləhətləşmələr, fikir mübadiləsi zamanı iavr, aqafirs, nevr, androfaq, melanxlen, qelon, budin və savromat çarları yığılarmış" [6, s.310]. Alim "Azərbaycan dilinin tarixi" əsərinin "Skiflər" adlanan hissəsində skif dili ilə bağlı araşdırmaları ətraflı təhlil edir və bu nəticəyə gəlir ki, skiflərin mənşəyində məhz türk entosu dayanır [6, s.315-330].

Q.Qeybullayev "Azərbaycan türklərinin təşəkkül tarixindən" adlı əsərində skif dilindəki türk sözləri ilə bağlı məsələlərə geniş yer ayırmışdır. O yazır ki, "skiflərin qədim türklər olduğunu göstərən faktlardan biri də onların allahlarının adlarıdır" [7, s.139]. Q.Qeybullayev haqlı olaraq skiflərin İran mənşəli xalq olmasının iddia olunmasına etiraz edir. O, bildirir ki, "Azərbaycan xalqının mənşəyi haqqında konsepsiyamızda işkuzaylar və skiflər türkdilli etnoslar sayılırlar" [7, s.136]. Qeyd edək ki, bir çox qaynaqlarda quz və ya işquz etnosu ilə skif və ya sak etnoslarının mənşəyinin bir olduğu vurğulanır. Qiyasəddin Qeybullayev skif etnonimlərinin və teonimlərinin türk mənşəli olduğunu qədim qaynaqlar əsasında izah edir. Q.Qeybullayev skif dilində Api "Yer ilahəsi" adının türkcə ebi, əbi "ulu nənə", Papay "Baş Allah" teoniminin türkcə baba, Qoytosip ("Allah adı) teoniminin türkcə qoy, qok "göy, səma", tesir- / teşir "deşmək" sözlərindən, Arqimas (ilahə adı) teoniminin türkcə irkin "aramsız yağan yağış" və baş "başçı" sözlərindən yarandığını göstərir. Q.Qeybullayev skif antroponimlərinin də əksəriyyətinin türk mənşəli olduğunu bildirir.

O, skif dilində işlənən Taksak, Atey, Aspak, Sparqapit, Xonaxis, Anaxarsis, Savli, İdantirs, Ariyapit, Skil, Opiya, Orik, Skolopit, Qnur, Skilur, Pollak, Oktamasad, Karastos, Ariant, Skopas, Tirqatay, Kolaksay, Lipoksay, Arpaksay, Skifarb, Olkaba, Telestra, Liq, Aqeros, Marsaqet, Sobodak, Panasaqor, Xarasin, Davket antroponimlərinin türk mənşəli olduğunu göstərir [7, s.134-150].

Zaur Həsənov "Çar skifləri" əsərində skiflərin oğuz tayfalarına aid qədim bir etnos olduğunu sübuta yetirə bilmişdir. O, skiflərlə oğuzların etnogenez cəhətdən eyni xalqa məxsus olduğunu zəngin dil faktları ilə isbat etmişdir. Z.Həsənov həmin əsərində Qiyasəddin Qeybullayev kimi onlarla skif antroponiminin və etnoniminin qədim və müasir türk dillərinin faktları əsasında türkmənşəli olduğunu açıqlamışdır [4]. Zaur Həsənov hətta türk teonimləri ilə skif teonimləri arasında paralelliklər müəyyənləşdirmişdir. Məsələn, alim skif panteonlarından olan Apollon ilə türk mifologiyasında özünü göstərən Xızır tanrısının homogen olduğunu isbat etmişdir [4, s.338]. Zaur Həsənovun araşdırmasında skif – türk paralellikləri dil, mifologiya və etnoqrafiya səviyyələrində müəyyənləşdirilmişdir. Onun qəti fikrinə görə, "skif dili Ural-Altay dilləri kimi tipoloji cəhətdən aqlütinativ quruluşda olmuşdur" [4, s.140]. Hind-Avropaşünasların türkün qədim tarixinə qısqanclıqla baxmaları və tarixi həqiqətləri bilərəkdən təhrif etmələri açıq-aydın hiss olunur. Skif, sarmat, kimmer, sak, işquz etnoslarının türk mənsubiyyəti heç kəsdə şübhə doğurmamalıdır. Fikrimizcə, skif dilində işlənən Api teoniminin türk dillərində, o cümlədən Azərbaycan dilinin dialekt və şivələrində işlənən aba, apa "ata, ana" sözləri ilə genetik bağlılığı şübhə doğurmur. Eyni zamanda, skif dilindəki Atey teoniminin türk qohumluq terminləri arasında özünəməxsus yer tutan ata sözü ilə eyni mənşəli olması dəqiqdir. Skif dilində işlənən saka "maral" sözü bəzi türk dillərində də həmin mənanı ifadə edir. Məsələn, müasir yakut dilində saka "maral" mənasındadır. Hətta yakutlar özlərini indi də saka // saxa adlandırırlar. Göründüyü kimi, skif dilinin leksik bazasında türk dillərindəki sözlərlə leksik paralellik təşkil edən analoji sözlər var. Zaur Həsənovun "Çar skifləri" adlı əsərində "Skif və türk sözlərində paralel affikslər, analitik konstruksiyalar, komponentlər" yarımbaşlığında skif dilində tay, qıt, qut, aksa, oksa, kay, say, at tipli şəkilçi funksiyasında işlənən komponentlərin türk dillərinin leksikası ilə bağlılığından bəhs edilir [4, s.146-154]. Məlumdur ki, tarixi-etimoloji cəhətdən şəkilçilərin əksəriyyəti müstəqil söz köklərindən törəmişdir. Ona görə də Zaur Həsənovun bu fikirləri həqiqəti əks etdirir. Elbrus Əzizov "Azərbaycan dilinin tarixi dialektologiyası" əsərində skif-Azərbaycan əlaqələri mövzusuna geniş yer vermişdir. Dialektoloq yazır ki, "sakalar Azərbaycanda yaşamış ən qədim tayfalardandır. Onlar mannalıların müttəfiqi olmuş, alban ittifaqında iştirak etmişlər. Sakaların Azərbaycan xalqının etnogenezində müəyyən rolu olmuşdur" [2, s.29]. Elbrus Əzizov skiflərin türkdilli xalq olması fikrini qəbul edir. O, bir çox alimlərin bu barədəki fikirlərinə istinad edir: "Hələ Bizans tarixçisi Manandr (VI əsr) türklərin qədimdə saka adlandığını göstərmişdir. Yenə həmin dövrdə yaşamış F.Simokata Qafqazda və şimalda yaşayan skifləri türk hesab etmişdir. VII əsrə aid "Erməni coğafiyası"nda Skifiya Apaxtarx (yəni "türk) kimi izah olunmuşdur. X.Cuğaetsi (XVIII əsr) Asiya Skifiyasını Apaxtarx, yəni "türk" adlandırmışdır" [2, s.25].

Skif. – Azərbaycan leksik paralelliklərinə nəzər salaq:

Skif. vir "kişi" [20] – Azərbaycan ər "qadının həyat yoldaşı". Məlumdur ki, ər leksemi ən qədim türk sözlərindən biridir.

Skif. ad "yemək" [20] – Azərbaycan ud- "udmaq". Göründüyü kimi, bu sözlər cüzi fonetik dəyişmə ilə fərqlənir. Çünki udmaq feilində də "yemək, qidalanmaq" semantikası var.

Skif. ar - "axtarıb tapmaq" [20] – Azərbaycan varmaq- "çatmaq";

Skif karta "qılınc" [20] - Azərbaycan dialektlərində kərtmək "kəsmək" feili geniş şəkildə işlənir. Qədim türk dilində də kertmäk "kəsmək, doğramaq" mənasında işlənmişdir. Hal-hazırda dilimizdə işlənən kərənti "dəryaz" sözündə də kər- kökü "kəsmək" semantikasını ifadə edir.

Skif. kas- "baxmaq" [20, s.4] - Azərbaycan göz;

Skif. pita "ata" [20] – Azərbaycan ata;

Skif. baqa "Allah" [20] – Azərbaycan bəy. Xatırladaq ki, bəy sözünün fonovariantı olan boq//baq sözü qədim türk dilində də "tanrı" mənasını ifadə etmişdir. F.Cəlilov "Azərbaycan dilinin morfonologiyası" əsərində slavyan dillərində "Allah" mənasında işlənən boq sözünün türk mənşəli olduğunu göstərmişdir [3, s. 146].

Skif. atar “od” [20] – Azərbaycan od. Çünki bu kök fars dilində işlənən atəş sözü ilə eyni-köklüdür.

Skif. nar “kişi” [20] – Azərbaycan nər, ər;

Skif. qaus “eşitmək” [20] – Azərbaycan qulaq;

Skif. az “təqib etmək, sürmək, qovmaq” [20] – Azərbaycan azmaq-;

Skif. tava “güc”[20] - Azərbaycan tab “güc, qüvvə”;

Skif. kuti “it, köpək” [20] - Azərbaycan küçük “it balası”;

Doğrudur, skif dilinə adi verilən materiallardan görünür ki, bu dilin leksikasında, İran mənşəli və ümumiyyətlə, hind-Avropa mənşəli sözlər də yer almışdır: məsələn: skif. danu “çay”. Osetin dilində də don “çay” anlamındadır. Və yaxud dvara “qapı”. Müqayisə edək: rusca dver, farca daru “qapı”, skif brata, fars bəradər “qardaş”, skif nama, fars name “ad” və s. Ancaq nəzərə alaq ki, skiflər mövcud olduğu dövrdə Avropa və Asiyanının böyük bir hissəsini zəbt etmişdilər. Çox döyüşkən xalq olan skiflər indiki İran ərazisinin və Rusiya ərazisinin də böyük bir hissəsini tutmuşdular. Ona görə də skif dilində İran mənşəli və yaxud slavyan mənşəli sözlərin olması labüd idi. “Tarixin atası” adlandırılan yunan tarixçisi Herodot skiflərə aid olan on beş tayfanın içərisində qurd totemi̇nə sitayiş edən tayfaların olduğunu bildirir. Məlumdur ki, qurd totemi qədim türklərdə də müqəddəs sayılmışdır [17, s.13-19]. Deməli, skiflərlə türkləri bağlayan mifoloji-sakral bənzərliklərdə mövcud olmuşdur.

Nəticə: Digər tərəfdən, Asiya və Avropa ərazilərində indiyə qədər aparılan arxeoloji qazıntıların nəticəsində tapılan maddi-mədəniyyət nümunələri, yəni paleontoloji faktlar da türklərlə skiflərin ortaq mədəniyyətə malik olduğunu sübut edir.

Ədəbiyyat siyahısı

1. Ağasıoğlu, F.A. Saqa eli // Azər xalqı / F.A.Ağasıoğlu. – Bakı: 2005. – s. 39 – 44.
2. Əzizov, E. Azərbaycan dilinin tarixi dialektologiyası / E.Əzizov. – Bakı: Elm və təhsil, – 2016. – 348 s.
3. Cəlilov, F.A.Azərbaycan dilinin morfonologiyası / F.Cəlilov. – Bakı: Maarif, –1988. – 286s.
4. Həsənov, Z.H. Çar skiflər / Z.Həsənov. – Bakı: Əbilov, Zeynalov və oğulları, – 2005. – 474 s.
5. İsmayıl, M. Azərbaycan tarixi / M.İsmayıl. – Bakı: Azərnəşr, – 1993. – 270 s.
6. Kazımov, Q.Ş. Azərbaycan dilinin tarixi. Ən qədim dövrlərdən XIII əsrə qədər / Q.Ş.Kazımov. – Bakı: TEAS Press Nəşriyyat Evi, – 2017. – 680 s.
7. Qeybullayev, Q.Ə. Azərbaycan türklərinin təşəkkül tarixindən / Q.Ə.Qeybullayev. – Bakı: Azərnəşr, – 1994. – 248 s.
8. Yusifov, Y.B. Qədim Şərq tarixi / Y.B.Yusifov. – Bakı: Şərq - Qərb, – 2007. – 384 s.
9. Toğan, V.Z. Ümumi türk tarihine giriş / Z.V.Toğan. – İstanbul: İstanbul Üniversitesi Edebiyat Fakültesi Yayınları, –1981. – 537 s.
10. Ercilasun, B.A. Kars İli Ağızları. Ses Bilgisi / A.B.Ercilasun.– Ankara: Gazi Universitesi, –1983.– 386 s.
11. Ercilasun, A.B. Başlangıcından Yirminci Yüzyıla Türk Dili Tarihi / A.B.Ercilasun. – Ankara: Akçağ Yayınları, – 2004. – 488 s.
12. Абаев, В.И. Скифо-европейские изоглоссы. На стыке Востока и Запада / В.И.Абаев. –Москва: Наука, –1965. –169 с.
13. Кулланда, С.В. Скифы: Язык и этнос// URL//Ошибка! Недопустимый объект гиперссылки./ifkv/archive/Vostokovedenie/№%202_2011.pdf
14. Лайпанов, К.Т. О происхождении тюркских народов / К.Т.Лайпанов, И.М.Мизиев.– Черкесск: ПУЛ, –1993. –138 с.
15. Лайпанов, Х.О. К истории карачаевцев и балкарцев / Х.О.Лайпанов. Карачаево-Черкесское книжное изд-во, –1957. – 71 с.
16. Маслов, Ю.С. Введение в языкознание: / Ю.С.Маслов. –М.: Высш. шк., – 1987. –272 с.

17. Мизиев И.М. Шаги к истокам этнической истории Центрального Кавказа / И.М.Мизиев. – Нальчик : Эльбрус. – 1986. – 182 с.
18. Реформатский, А.А. Введение в языковедение/А.А.Реформатский. – М.: Аспект Пресс, – 1996. – 536 с.
19. https: //ru. Wikipedia/org/wiki/Скифы

Баба Магеррамли

Скифо-азербайджанские языковые связи

Аннотация

В статье исследуются лексемные соответствия и лексические параллели между скифским и азербайджанским языками. В древнегреческих источниках этнос, известный как скифы, также упоминается под названием «саки». Связи древнего этноса, обозначаемого в источниках как скифы или саки, с тюркскими народами на протяжении длительного времени являлись предметом исследований различного характера и уровня. Комплексный анализ скифско-тюркских параллелей свидетельствует о том, что выявленные соответствия не являются случайными. Сближению скифов с тюрками, в том числе с азербайджанцами, способствуют как сходные культурно-образные элементы, зафиксированные в материалах археологических раскопок, так и соответствующие языковые факты. Одним из основных положений исследования является предположение о том, что скифы представляли собой один из этносов, существовавших в древности на территории современного Азербайджана. На основании рассмотренного материала делается вывод о том, что скифы могли принадлежать к числу этнокультурных компонентов, сыгравших определённую роль в формировании тюркской цивилизации на территории Азербайджана.

Ключевые слова: *скифы, Азербайджан, тюркские народы, лексические, соответствия, этнос.*

Baba Maharramli

Scythian – Azerbaijani linguistic relations

Abstract

This article examines lexical correspondences and lexical parallels between Scythian and Azerbaijani. In ancient Greek sources, the ethnic group known as the Scythians is also referred to as the Saka. The relationship between the ancient ethnic group identified in historical sources as the Scythians or Saka and the Turkic peoples has been the subject of studies of varying scope and methodological orientation. A comprehensive analysis of Scythian–Turkic parallels suggests that the correspondences identified between these traditions are unlikely to be purely coincidental. The Scythians and the Turkic peoples, including the Azerbaijanis, are linked not only by similar cultural and representational elements reflected in archaeological finds, but also by corresponding linguistic evidence. One of the principal arguments advanced in this study is that the Scythians constituted one of the ethnic groups that inhabited the territory of present-day Azerbaijan in antiquity. Based on the linguistic and archaeological material examined, the study argues that the Scythians may be regarded as one of the ethnocultural components that contributed to the formation and development of Turkic civilization in the territory of Azerbaijan.

Keywords: *Scythians, Azerbaijan, lexical correspondences, lexical, parallels, etnos.*

Çapa tövsiyə edən: AMEA Nəsimi adına Dilçilik İnstitutu

Rəyçilər: fil.e.d.A.Məşədiyeva
fil.e.d.İ.Cəfərsoy